İSSN-0207-4710

# GÖYƏRÇİN

5-6
2014-cü il



## RAFİQ YUSİFOĞLU

### AZƏRBAYCANIM

Doğma vətənim,
Necə əzizsən!
Biz ləpələrik,
Sənsə dənizsən.

Dağların uca,
Göllərin dərin.
Aranın isti,
Yaylağın sərin.

Güllərin bəyaz,
Qırmızı, sarı...
Çayların axır
Xəzərə sarı...

Çəmənlərin var,
Meşələrin var,
Nə qədər gözəl
Guşələrin var.

Hər an sən mənim
Ürəyimdəsən.
Bircə yol mənə
Ürəyim desən,

Göyə ucalar
Şərəfim, şanım.
Sən mənim qanım,
Sən mənim canım,
Azərbaycanım!
Azərbaycanım!

### OD QİYMƏTİNƏ, SU QİYMƏTİNƏ

–Göyü satırıq
Su qiymətinə,
Suyu alırıq
Od qiymətinə...
–Başa düşmədim,
Ay Qiymət nənə,
Su qiyməti nə,
Od qiyməti nə?
–Bilmirsən məgər,
Bahadır bala? –
Su qiyməti çox
ucuz deməkdir,
Od qiyməti çox
bahadır, bala!

### OYUNCAQ

Babam alıb oyuncaq,
Deyir: –Oyna doyunca!
Yepyekə bir şirdi bu,
Möcüzədi, sirdi bu...
Başımı aldatmayın,
Daha deyiləm çağa.
Oyuncağın əlində
Dönmərəm oyuncağa...

Rəssam
Afər



### SƏRÇƏCİK

Çox elədi
Sərçə: -Cik!
Adı qaldı
Sərçəcik...

***

Yağış yağır:
–Tap, tap...
Nə deyir o? –
Tap, tap!
İndicə sel gələcək,
Min atını çap, çap!



### TƏNHA ADA

Dənizin ortasında
Darıxır tənha ada.
Ona görə sevinir
Görəndə bircə adam.

O, gələn qonaqların
Öpür qədəmlərindən.
Tək qalanda darıxır,
Köks ötürür dərindən.

Əli sahilə çatmır,
Sular kəsib aranı.
Onun göz yaşlarından
Bu dənizlər yaranıb...

Yamanca kövrək olub
Yaşının bu çağında.
Bir gəmiyə bənzəyir
Dalğalar qucağında.

Nə yanına gələn var,
Diqqətlə bax sən ona! –
Nə üzüb gedə bilir
Adamların yanına...

Suların dövrəsində
Qəlbi tutulur oda.
Bizdən ötrü darıxır
Dənizdə tənha ada...

### DARIXAN FINDIQ KOLU

Sevib əzizləyirəm
Təzə fındıq kolunu.
O isə hey gözləyir
Meşələrin yolunu.

Xeyli vaxtdır düşübdür
Dostlarından aralı.
Onun yarpaq gözləri
Həsrətdənmi saralıb?!

Qəmgin-qəmgin yellənir,
Bağçada darıxır tək. –
Mən onun dövrəsində
Meşə yaradam gərək...

***

Gir bulud arxasına,
Nə xəbərdi, ay Günüm?!
Yerdə kölgəlik yoxdu,
Qaralmasın Aygünüm...

